http://www.amu.edu.az

# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 08 (1648) 30 aprel 2017 - ci il Qiyməti 50 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyev Qətərin sabiq Baş naziri və sabiq xarici işlər nazirini qəbul edib



Aprelin 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qətər Dövlətinin sabiq Baş naziri və sabiq xarici işlər naziri Şeyx Həməd bin Casim bin Cabir Al Tanini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Həməd bin Casim bin Cabir Al Tani Azərbaycana səfərindən keçən 10 il ərzində ölkəmizdə inanılmaz dərəcədə böyük dəyişikliklərin şahidi olduğunu dedi və paytaxtımızda aparılan çox böyük abadlıq və inkişaf proseslərinə valeh olduğunu bildirdi. Həməd bin Casim bin Cabir Al Tani Qətərdən və ölkəsinin yerləşdiyi regiondan Azərbaycana artıq çoxsaylı turistlərin gəlməsini məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev son illər Azərbaycanda gedən inkişaf-quruculuq işlərinə toxundu, insanların rahat yaşayışı üçün böyük həcmdə investisiyanın yatırıldığını dedi. Dövlətimizin başçısı Azərbaycanda, o cümlədən Bakı şəhərində həyata keçirilən genişmiqyaslı işlərdən danışdı.

Görüş zamanı ölkələrimiz arasında hava nəqliyyatı, turizm, kənd təsərrüfatı, enerji, neft-kimya, birgə sərmayə qoyuluşu sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, Azərbaycan-Qətər ikitərəfli əlaqələrinin genişləndirilməsinin önəmi qeyd olundu.

## BU SAYIMIZDA



"Azərbaycan Tibb Universitetində 2016/2017- ci tədris ilində təsərrüfat işlərinin vəziyyəti və qarşıda duran vəzifələr" müzakirə olunub 2

İNSANLARA NUR BƏXŞ EDƏN ALİM




ATU rəhbərliyi Suraxanıda akademik Zərifə xanım Əliyevanın anadan olmasının 94-cü ildönümünə həsr edilmiş tədbirdə iştirak edib 4-5

"Sağlam təhsil - sağlam millət: görülmüş işlər, nailiyyətlər və perspektivlər" mövzusunda elmi-praktiki konfrans keçirilib 3



ATU Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki konfransı keçirildi 5



ATU nümayəndəsi İspaniyada elmi-tədqiqat işi aparıb 8

"Revmatoloji xəstəliklərin müasir diaqnostika və müalicə metodları" mövzusunda konfrans keçirilib 6



Qadınların təhsilli olması daha vacibdir 6



FAKÜLTƏLƏRDƏ TƏLƏBƏ ELMİ KONFRANSLARI KEÇİRİLİR 7

Türkiyə vətəndaşı olan azərbaycanlı kardioloq-aritmoloq ölkəmizdə çalışmaq niyyətindədir 7

ATU-nun yəmənli tələbəsi yarışmanın qalibi olub 8

Miomanın xaric edilməsindən sonra yaranan fəsadlar 3

# BÖYÜK ELMİ ŞURADA

**Aprelin 25-də Böyük Elmi Şuranın növbəti iclası keçirilib. Yığıncağı açan Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli gündəliyə keçməzdən öncə bildirib ki, universitet ictimaiyyətinə ağır itki üz verib. Bu günlərdə ortopedik stomatologiya kafedrasının məsləhətçi-professoru Elxan Kərimov dünyasını dəyişib. Mərhumun xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra “Azərbaycan Tibb Universitetində 2016/2017- cı tədris ilində təsərrüfat işlərinin vəziyyəti və qarşıda duran vəzifələr ” barədə inzibati- təsərrüfat işləri üzrə prorektor Aydın Vəliyevin məruzəsi dinlənilib.**






Müstəqil Azərbaycan Respublikasının memarı olan ümummilli lider Heydər Əliyevin eyni zamanda Azərbaycan Tibb Universitetinin də əsil qurucusu, yaradıcısı olduğunu qeyd edən məruzəçi, bu xeyirxah missiyanın ölkə Prezidenti cənab İlham Əliyevin böyük uğurla davam etdirdiyini vurğuladı. O, iki dəfə ulu öndər Heydər Əliyevin, üç dəfə isə cənab Prezident İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın universitetimizə gəlişini xatırlatdı. Onların Tədris Terapevtik və Tədris Cərrahiyyə Klinikalarının tikilib istifadəyə verilməsində şəxsən iştirak etmələrini, o cümlədən bu klinikaların, eləcə də Tədris Stomatoloji və Onkoloji Klinikaların müasir tipli avadanlıqlarla təchiz olunmalarını dövlətin universitetimizə göstərdiyi qayğı və diqqətin bariz nümunəsi kimi dəyərləndirdi.

Sözünə davam edən A.Vəliyev bildirdi ki, bu illər ərzində ali məktəblər arasında ön sırada dayanan Azərbaycan Tibb Universiteti ölkəmizin ən böyük tibb təhsili mərkəzinə çevrilmişdir: “Tibb təhsilində tədris prosesi prioritetlik təşkil etsə də, universitetdə elmi-tədqiqat işlərinin və müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsinə də eyni dərəcədə xüsusi diqqət yetirilir. Bütün bu işlərin yüksək səviyyədə yerinə yetirilməsinin bünövrəsində maddi-texniki baza, innovativ təchizat, müasir avadanlıqlar durur.

Tədris, elmi-tədqiqat, müalicə-profilaktika, diaqnostika və reabilitasiya, təlim-tərbiyə, işlərinin ahəngdar surətdə yerinə yetirilməsini təmin etmək üçün birbaşa rektorluğun tabeliyində olan təsərrüfat işləri şöbəsinin üzərinə böyük məsuliyyət düşməsi bütün ciddiyyəti ilə tərəfimizdən dərk olunur və hörmətli rektorumuz, professor Gəray Gəraybəylinin bu istiqamətdəki göstərişləri ilboyu yerinə yetirilir”.

Təsərrüfat işləri şöbəsinin əsas vəzifələrini diqqətə çatdıran natiq hesabat dövründə şöbə tərəfindən bir sıra təxirəsalınmaz təmir və yenidənqurma işlərinin həyata keçirildiyi barədə geniş məlumat verdi: “Uzun müddət istismarda olan qızdırıcı qazanlar, odluqlar sıradan çıxmış və qış mövsümündə tez tez qəzalar baş verirdi. Həmin su sızıntısını aradan qaldırmaq üçün qazanxananın işini dayandırmaq məcburiyyətində qalırdıq. Bu da universitetin tədris binalarının, tələbə yataqxanalarının istiliklə və isti su ilə təchizatında fasilələr yaradırdı. Bununla əlaqədar qazanxananın yenidən qurulmasına hörmətli rektorumuz tərəfindən dərhal göstəriş verildi. Qısa bir zamanda qazanxana binası yenidən təmir olundu, köhnə, yararsız avadanlıq demontaj edildi, əvəzinə müasir texnologiyalara cavab verən avadanlıqlar quraşdırıldı. Bu mövsüm universitetin tədris binalarında və yataqxanalarında istilik və isti su ilə əlaqədar heç bir problem yaranmadı, təchizat fasiləsiz və yüksək səviyyədə təmin edildi.

3 saylı tələbə yataqxanasının istilik təchizatının pozulması ilə əlaqədar həmin sistem yenidən qurulmuşdur. 1 və 5 saylı tədris binalarında daxılı istilik sistemi plastik borularla tam əvəzlənmiş, bütün radiatorlar yenilənmişdir. 2 saylı tədris binasında yeni istilik xətləri çəkilərək əlavə 82 ədəd yeni radiator quraşdırılmışdır.

4 saylı tədris binasının 2-ci mərtəbəsində yerləşən kiçik akt zalı kondisionerlə qızdırılırdı. Bu isitmə sistemi daha çox enerji itkisinə səbəb olduğundan isitmə sistemi plastik borular və radiatorlarla təchiz edilərək mərkəzləşdirilmiş istilik sistemi qovşağına birləşdirildi.

İnzibati binanın, 3 saylı tələbə yataqxanası, 1 və 5 saylı tədris binalarının dam örtüklərinin bir hissəsi yararsız hala düşmüşdü. Qış mövsümü öncəsi həmin binaların dam örtüklərində defeklərinin aradan qaldırılması üçün lazımi işlər görülmüş, inzibati binanın zirzəmisi və sanitar qovşağında, o cümlədən 5 saylı tədris binasının 48 sanitar qovşağında əsaslı təmir işləri aparılmış, döşəmə və divar örtükləri keramik plitələrlə üzlənmiş, aksessuarlar dəyişdirilərək yeniləri ilə əvəzlənmişdir.

2016-cı ilin sentyabr ayında universitetimizin hazırlıq kursuna xarici ölkələrdən çoxsaylı dinləyicilərin qəbul olunması ilə əlaqədar 5 saylı tədris binasının 10-11-ci mərtəbələrində tədris prosesinin təcili təşkil edilməsi üçün dəhliz və otaqlarda cari təmir işləri həyata keçirilib.

Patoloji anatomiya kafedrasının yerləşdirilməsi problemini təmin etmək məqsədilə, Böyük akt zalının 3-cü və 4-cü mərtəbələri müasir tələblər səviyyəsində təmir edilərək tədris üçün tam yararlı vəziyyətə salınmışdır.

Universitetimizin 3, 5, 6 saylı tələbə yataqxanaları, həmçinin 3, 4, 5 saylı tədris binalarını fasiləsiz su ilə təmin etmək üçün həmin binalarda müasir hidrofor sistemi və nasoslar quraşdırılıb. Bütün tədris binalarında və yataqxanalarda alüminium elektrik xətləri mis xətlərlə, köhnə şitlər isə yeni şitlərlə əvəz olundu. Həmçinin, elektrik qoruyucuları, lampalar, elektrik açarları, tələb olunan yerlərdə dəyişdirildi.”

Yüksək sürətli və təhlükəsizlik qaydaları çərçivəsində istifadəçilərin internetdən istifadə etmələri üçün xüsusi texniki tədbirlərin həyata keçirildiyini deyən natiq son zamanlar internetə daxil olma problemlərinin əmələ gəldiyini və bu problemin də artıq öz həllini tapdığını, 2017-ci ilin yanvar ayında 3 və 6 saylı tələbə yataqxanalarında Wİ-Fİ lokal şəbəkə yaradılaraq tələbələrin istifadəsinə verildiyini bildirdi.

Onun sözlərinə görə, 2 saylı tədris binasının 2-ci və 3-cü mərtəbələrindəki laboratoriya otaqları təmir edilmiş, elektrik xətləri, işıqlandırma sistemi dəyişdirilmiş, döşəmə laminat və süni qranitlə üzlənmiş və su təchizatı yenilənmişdir. 2 saylı tələbə yataqxanasının və orada yerləşən tələbə poliklinikasının təmirinə ehtiyac yarandığından 2016-cı ilin noyabr ayından əsaslı təmir işlərinə başlanılmışdır.

Hesabat ili üzrə həyata keçirilən işləri nəzərə çatdıran A.Vəliyev dedi ki, yanğına qarşı mühafizə qaydaları çərçivəsində universitetin binalarında texnoloji avadanlığın, elektrik şəbəkələrinin, isitmə sistemlərinin istismarında yanğın təhlükəsizliyinə cavabdeh şəxslər təyin edilir, yanğına qarşı təlimatlar hazırlanır, xüsusi jurnallar tərtib edilir.

Dövlət Satınalmaları haqqında Azərbaycan Respublikası Qanununa uyğun olaraq açıq tender vasitəsi ilə universitetə 68 ədəd kompyuter, 11 ədəd Notebook, 34 ədəd printer, 50 ədəd UPS, 12 ədəd soyuducu, 5 ədəd televizor, 20 ədəd proyektor, tibbi avadanlıq, yumuşaq inventar, dəftərxana ləvazimatları, təsərrüfat malları alınmışdır.

Gələcək planlarından da danışan məruzəçi dedi ki, 1 saylı və 3 saylı tədris binasındakı insan anatomiyası kafedrasının təşrih laboratoriyası və otaqlarının layihə-smeta sənədləri hazırlanaraq təmiri nəzərdə tutulmuşdur. Bu işlərdən biri də ərazidə təhlükəsizlik tədbirlərini həyata keçirmək məqsədilə turniket və video-nəzarət sistemlərinin quraşdırılması zərurəti gündəmdə saxlanılır. Universitet rəhbərliyinin göstərişlərinə əsasən kafedralar tərəfindən bərk inventarla əlaqəli müraciətlər nəzərə alınmış və yeni tədris ilində həmin kafedralar sifariş etdikləri inventartla təmin olunacaq. 5 saylı tədris binasının üzlük travertin daşlarının tökülməsi ilə əlaqədar FHN-dən rəy alınıb, layihə-smeta sənədləri hazırlanıb və maliyyə imkanlarını nəzərə alaraq yaxın gələcəkdə öz həllini tapacaq. İdman kompleksinin də əsaslı təmirə ehtiyacı olduğunu vurğulayan məruzəçi bu məsələnin də hörmətli rektorumuzun diqqətində olduğunu bildirdi. Məruzə ətrafında çıxış edən kafedra müdirləri İbadulla Ağayev, Ədalət Həsənov və Əsaslı kitabxananın direktoru Ziyafət Eminova təsərrüfat şöbəsinin apardığı yenidənqurma və təmirtikinti işlərindən söhbət açdılar. Məruzəni qənaətbəxş qiymətləndirən natiqlər bu sahədə əldə olunan nailiyyətlərlə yanaşı, problemlərin də olduğunu bildirdilər və onların aradan qaldırılması istiqamətində bir sıra təkliflər irəli sürdülər. HİK- nin sədri Cahangir Qasımov qeyd etdi ki, təsərrüfat şöbəsi ilə birgə mütəmadi olaraq tələbə yataqxanalarına baxış keçirilir. Bu il yataqxanalarda daxili nizam-intizam qaydalarının pozulması, dəhliz və otaqlarda siqaret çəkmək, universitet əmlakına ziyan vurmaq, otaqlarda sanitar-gigiyenik qaydalara riayət edilməməsi kimi hallar Həmkərlar İttifaqı Komitəsində müzakirə edilmiş və nəticədə 6 xarici , 6 yerli tələbə ilə bağlanmış müqavilələrə xitam verilərək yataqxanadan xaric edilmiş, 4 nəfər tələbəyə isə töhmət verilmişdir.

Müzakirələrə yekun vuran rektor bildirdi ki, təsərrüfat şöbəsi universitetin ən ağır və çətin sahələrindən biridir: “Nə qədər iş görülsə də, bu proses daim getməlidir. Məlum məsələdir ki, maddi-texniki təchizat məsələsi bizim maliyyə imkanlarımızdan asılıdır. Maddi imkanlarımız da hamıya bəllidir.

Mən məlumat əldə etdim ki, tələbələr 2 milyon manata yaxın təhsil haqqını ödəməyib. Axırda qərara gəldik ki, təhsil haqqını ödəməyən tələbələr müəyyənləşdirilmiş tarixdən dərsə buraxılmasın. Amma bu da problemin həlli demək deyil. Bu yaxınlarda öyrəndim ki, dissertantura və doktorantura şöbələrində elələri var ki, illərlə təhsil haqqını ödəmirlər. Buradan göstəriş verirəm ki, təhsil haqqını ödəməyən dissertant və aspirantların məsələsi prorektorla birgə araşdırılsın və bu problem qaydasına qoyulsun.

Biz universitetin daha yaxşı şəraitdə fəaliyyət göstərməsini istəyiriksə, nizam-intizama riayət etməliyik. Hələ də kafedralarda vaxtlı-vaxtında işə gəlməyən əməkdaşlar var. İşə gəlməyən əməkdaşın maaşı verilməməlidir. Bu, ciddi maliyyə məsələsidir. Bu yaxınlarda bir kafedrada oldum, 15 işçidən 5-i işdə idi. Kafedra müdiri 10 nəfərin harada olduğunu bilmir. Ola bilsin ki, bülleten götürsünlər. O bülletenləri araşdırmaq lazımdır.

Yaşlı nəslin nümayəndələrinə böyük hörmətim var. Amma müqavilələrlə işləyənlər arasında elələri var ki, onlar da işə gəlmir. Bu cür insanları işdə saxlamaq düzgün deyil. Bəzi Tibb Universitetinin əməkdaşları başqa klinikalarda fəaliyyət göstərir. Hesab edirəm ki, universitetin heç bir əməkdaşı iş vaxtı kənarda fəaliyyət göstərə bilməz. Bunun məsuliyyəti yenə də kafedra müdirlərinin üzərindədir. Onlar bilməlidir ki, əməkdaşları haradadır və nə işlə məşğuldur?

Mən heç kimi qorxutmuram. Qanunvericilik var, əmək məcəlləsi var, ona müvafiq ölçü götürüləcək.

Hazırda avadanlıqların qeydiyyatı aparılır. Verilən avadanlıqlar təhvil alınanda diqqətli olun ki, sonra da sizin üçün hansısa problem yaranmasın. Hər bir kafedra bu məsələyə diqqətlə yanaşmalıdır.

Burada universitetin istiliklə təchizi məsələsinə toxunuldu. İstiliyin təchizat məsələsi ürəkaçandır. Mən bu yaxınlarda kitabxanada oldum. Orada istilik normal verildiyi üçün tələbələr pəncərələri açmışdılar. Tələbələrin şəraitinin yaxşılıaşdırılması ürəkaçan məsələdir. Bu proses davamlı olacaqdır.

İnternet məsələsinə toxunmaq istərdim. Müasir dövrdə internetsiz yaşamaq mümkün deyil. Yaxşı haldır ki, bizim iki yataqxanamızda artıq Wİ-Fİ lokal şəbəkə var. Çalışacağıq ki, digər yataqxanalarda da bunu təmin edək.

Kommunal xərcləri maliyyənin bir tərkib hissəsidir. Yay aylarında işığa olan xərc artıq olub. Bu məni təcübləndirdi. Komissiya yaradıldı. Məlum oldu ki, universitetin hesabına hansısa bir şəxs istifadə edir. O, universitetin ərazisində bir gecənin içərisində 4 sayğac dəyişib. Təbii ki, bu adam işdən azad olundu”.

Bundan başqa müxtəlif məsələlərə də toxunan universitetin rəhbəri bildirdi ki, rektoryanı şurada attestasiya komissiyasının ilkin nəticələri müzakirə olunub. Bu nəticəyə görə universitetimiz yüksək bal toplayıb. Nəticələrdə istər tədris, istər kliniki fəaliyyət və o cümlədən kafedralarda olan bəzi nöqsanlar da öz əksini tapıbdır. Mövcud nöqsanların aradan qaldırılması üçün prorektorlara da müvafiq tapşırıqlar verilib.

Sonra kollektiv tərəfindən namizədliyi irəli sürülən qidalanma və kommunal gigiyena kafedrasının professoru Maqsud Qasımov kafedranın məsləhətçi-professoru seçildi. Eyni zamanda fənlər üzrə professor-müəllim heyətinin imtahanın gedişində və imtahan vərəqələrinin doldurulmasında iştirakını təmin etmək barədə tədris şöbəsinin müdiri Nəsimi Qasımovun təklifini müzakirə edən Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Mənsur ƏLƏKBƏRLİ**

# "Sağlam təhsil – sağlam millət: görülmüş işlər, nailiyyətlər və perspektivlər" mövzusunda elmi-praktiki konfrans keçirilib

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında "Sağlam təhsil – sağlam millət: görülmüş işlər, nailiyyətlər və perspektivlər" mövzusunda elmi-praktiki konfrans keçirilib. Konfransda böyüməkdə olan nəslin sağlamlığının qorunması məsələləri, bu istiqamətdə görülən maarifçilik tədbirləri müzakirə olunub.**





ATU-nun rektoru, professor Gəray Gəraybəyli qonaqları salamlayaraq bildirib ki, "Sağlam təhsil-sağlam millət" layihəsi məktəbyaşlı uşaqların inkişafı, maarifləndirilməsi, təhsili və sağlamlığının qorunması kimi mühüm vəzifələrin həllinə yönəldilib.

Rektor həmçinin bu cür layihələrin önəmindən də bəhs edib: "Bu günkü konfransımızda çox ciddi və vacib məsələlərdən danışılacaq. XXI əsrdə təhsil alanların səviyyəsinə diqqət bütün dünyada artmaqdadır. ABŞ, Avropa, MDB, Azərbaycan alimlərinin tədqiqatları göstərir ki, bir çox faktorların mənfi təsirləri nəticəsində uşaq və yeniyetmələrin fiziki, psixi inkişafında müəyyən qüsurlar yaranır və bu da ilk öncə uşağın məktəbli dövrünə təsadüf edir. Buna görə də məhz məktəb şəraitində uşaqların düzgün inkişafına, düzgün həyat tərzinin formalaşmasına, düzgün qidalanmasına və s. faktorlara diqqət yetirilməlidir. Azərbaycan Respublikasının Təhsil İnkişafı üzrə Dövlət Strategiyasının qarşıya qoyduğu vəzifələri nəzərə alaraq, 2013-cü ildə Təhsil Nazirliyinin "Sağlam təhsil" layihəsinə başlanıldı. Bu layihənin əsas məqsədi fiziki və mənəvi sağlam, yüksək savada malik olan Azərbaycan vətəndaşları yetişdirmək idi".

Azərbaycan Dövlət Pedaqoji Universitetin rektoru, professor Cəfər Cəfərov bildirib ki, Təhsil Nazirliyi tərəfindən son illər həyata keçirilən layihələr məktəbəqədər, orta, ali və digər gənc nəslin təhsillə yanaşı, tərbiyəsində də böyük rol oynayır: "2014-cü ildən başlayan bu layihə bugünədək Bakı və Sumqayıtın 35 məktəbinin 116 sinfində tətbiq olunub. Bu cür layihələrin uğuru ilk növbədə ibtidai sinif müəllimlərindən asılıdır. Gələcək ibtidai sinif müəllimlərini "Sağlam sinif" layihəsində iştirak edən siniflərlə tanış etmək üçün ibtidai təhsil fakültəsinin nəzdində Sağlam Təhsil Pedaqogikası Mərkəzi və sağlam təhsil auditoriyası yaradılıb. İbtidai sinif müəllimliyi ixtisasında uşaq anatomiyası, fiziologiyası, həyat bilgisi və onun metodikası, ibtidai təhsilin pedaqogikasının tədrisində məktəblərin sağlamlığı və sağlam təhsil texnologiyaları ilə bağlı daha geniş məlumatların verilməsi nəzərdə tutulub. "Sağlam təhsil-sağlam millət" layihəsinə uyğun olaraq, pedaqogika kursunun tədrisində pedaqoji valeologiya və didaktologiyanın əsasları öyrədilir".

Təhsil Nazirinin müşaviri Həsən Həsənli bildirib ki, 2014-cü ilin mayında 2500 məktəblinin diaqnostik qiymətləndirmə aparmaq üçün tibbi monitorinq keçirilib. Ənənəvi siniflərdə məktəbi bitirən yeniyetmə məzunlar arasında görmə problemi 45 faiz, qamət pozuntusu isə orta hesabla 50 faiz təşkil edib. Birinci sinifdə təhsil alan oğlanlar arasında fiziki inkişaf çatışmazlığı 19 faiz, beşinci sinifdə 33 faiz, sonuncu sinifdə isə artıq 40 faiz təşkil edib: "Mütəxəssislərimiz tərəfindən aparılmış monitorinqlərin statistik təhlilləri də göstərir ki, ənənəvi siniflərlə müqayisədə sağlam təhsil siniflərində şagirdlərin hər bir istiqamət üzrə nəticələri əhəmiyyətli dərəcədə yüksəkdir".

Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini, millət vəkili Bəxtiyar Əliyev qeyd edib ki, sağlam həyat və mühit şagirdlər üçün olduqca vacib məsələdir: "Cəmiyyətin sağlamlaşdırılması hər bir dövlətin qarşısında duran əsas məsələlərdəndir. Görülən işin uğuru onun müxtəlif peşə sahiblərini bir arada toplamasından irəli gəlir. Sağlam mühiti yaratmadan sağlam insanı da yetişdirə bilmərik. Bu məqsədlə layihənin birinci mərhələsində kiçikyaşlı məktəblilər sağlam təhsilə cəlb edilib. Gələcəkdə bu sistemin bütün məktəb yaşlı uşaqları əhatə etməsi daha məqsədəuyğun olardı".

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin monitorinq, təhlil və İT şöbəsinin müdiri İsa Əliyev bildirib ki, icbari tibbi sığorta sistemində uşaqlar sığorta haqqı ödəməkdən azad olacaqlar uşaqlara tibb müəssisələrində göstərilən bütün tibbi xidmətlərin xərcləri agentliyə dövlət tərəfindən ödəniləcək.

Konfransda çıxış edənlər uşaq və yeniyetmələrin sağlamlığının mühafizəsi və gigiyenasından, onların sağlamlığının qorunması və məktəblərdə sağlamlığın təşviq olunmasının əhəmiyyətindən bəhs edib, bu pilot layihənin məktəblilərin sağlamlığının qorunmasına xidmət etdiyini bildirib və onun gələcəkdə daha da genişlənməsinə ümid etdiklərini vurğulayıblar.

Qeyd edək ki, konfransda Uşaq və yeniyetmələrin sağlamlığının mühafizəsi və gigiyenası Elmi-Tədqiqat İnstitutunun direktoru, Rusiya Federasiyası Elmlər Akademiyasının müxbir üzvü, professor V.Kuçma da iştirak edirdi.

Konfransda ATU-nun qidalanma və kommunal gigiyena kafedrasının müdiri, dosent İbrahim Əhmədov, Təhsil Nazirliyinin aparıcı məsləhətçisi, p.ü.f.d. Afət Süleymanova, AMEA-nın Fəlsəfə İnstitutu, Sosiologiya şöbəsinin müdiri, ə.e.x., professor Rəfiqə Əzimova, Uşaq və yeniyetmələrin sağlamlığının mühafizəsi və gigiyenası ETİ-nun direktoru, REA-nın müxbir üzvü, professor V.R.Kuçma, Respublikanın Baş epidemioloqu, ATU-nun epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev, Azərbaycan Tibb Universitetinin dosenti Nigar Süleymanzadə, MTTM, AMEA-nın dissertantı, sosioloq, Nigar Şahhüseynbəyova, Bakı Dövlət Universitinin Psixologiya kafedrasının p.ü.f.d. A.Bunyatova, ATU-nun ictamai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, professor Rafiq Çobanov, Azərbaycan Dillər Universitetinin Psixologiya kafedrasının müəllimi Sevinc Əmirova, Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyətinin sədri, Qadınlar üçün Qlobal Fondun Azərbaycan üzrə nümayəndəsi gender üzrə mütəxəssis Şəhla İsmayıl, 18 nömrəli məktəbin direktoru, əməkdar müəllim Rəna Süleymanova, 26 nömrəli məktəb, ibtidai sinif müəllimi, Qabaqcıl təhsil işçisi Qönçə Qasımova, ATU-nun uşaq və yeniyetmələr gigiyenası kafedrasının dosenti Sədaqət Həsənova , ADPU-nun müəllimi Xuraman Nağızadə, ADPU-nun SABAH qruplarının koordinator rəhbəri Lalə Mursəlbəyova, Azərbaycan Tibb Universitetinin dosenti Zöhrə İsmayılovanın çıxışları dinlənildi.

Ümumilikdə, elmi-praktik konfransında təxminən 200 nümayəndə, o cümlədən alimlər, müəllimlər, müxtəlif dövlət qurumların nümayəndələri və məktəb direktorları iştirak ediblər.

# Miomanın xaric edilməsindən sonra yaranan fəsadlar

**Laparoskopik miomektomiyanın hansı fəsadları olur? Bu barədə Tədris-Cərrahiyyə Klinikasının ginekologiya üzrə cərrah-endoskopisti, ali dərəcəli həkim Fərhad Sultanov məlumat verib.**



Həkimin sözlərinə görə, laparoskopik üsul haqqında tam təsəvvürə malik olmayanlarda belə bir yanlış fikir yaranır ki, guya laparoskopik miomektomiyadan sonra hamilə qadınlarda uşaqlığın yırtılması kimi fəsadlaşma baş verə bilər. Əslində isə bu fəsadın səbəbi enikulyasiya olunmuş, yəni soyularaq çıxarılmış şişin yatağının düzgün bərpa edilməməsidir. Əgər yataq düzgün tikilmirsə, bu fəsad açıq üsulla keçirilmiş əməliyyatdan sonra da baş verə bilər.

Belə ki, istər laparoskopik, istərsə də laporotomik üsulla miomanın xaric edilməsindən sonra yataq bir neçə qatla tikilərək bərpa edilməlidir. Bu cür tikiş həm hemostaz baxımından, həm də sonrakı bitişmələr, uşaqlığın yırtılması, çapığın çatışmazlığı və bu kimi digər fəsadlaşmaların qarşısının alınması baxımından əhəmiyyətlidir.

# Tədris Cərrahiyyə Klinikasında takayasu damar xəstəliyindən əziyyət çəkən qadın ana olub

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında ağır hamiləlik uğurla başa çatıb. Takayasu damar xəstəliyindən əziyyət çəkən Ağdaş rayon sakini, 1990-cı il təvəllüdlü Vüsalə Cəbrayılova analıq sevincini yaşayıb.**



Klinikanın II mama-ginekologiya şöbəsinin müdiri, uzman Dr. Turab Canbaxışovun sözlərinə görə, xəstə uzun illər ana olmaq həsrətində idi. Lakin xəstəliyi ilə əlaqədar buna nail ola bilmirdi. Azərbaycanda və Moskvada bir çox mütəxəssislərə müraciət etməsinə və bir sıra müalicələr almasına baxmayaraq, həkimlər bunun çox riskli hamiləlik olacağından ehtiyat ediblər.

Tədris Cərrahiyyə Klinikasına müraciət edən qadın bu arzusunu reallaşdırıb. T.Canbaxışovun bildirdiyinə görə, bu xəstəlik dünyada bir milyon insandan bir-ikisində rast gəlinsə də, Asiya ölkələrində yüz min insandan iki-üçündə olur: "Qan təzyiqini artıran bu xəstəlik, aorta deyilən ana damar və bütün daxili orqanlarına gedən damarların daxili divarını zədələyərək, daralmasına və hətta tutulmasına səbəb ola bilər. Həmin xanımın bu problemlə əlaqəli olaraq bir böyrəyini qidalandıran damarın bağlanma təhlükəsinin olduğu üçün bir neçə il əvvəl stend də yerləşdirilib. Uzun müddət müalicələrdən sonra xanım hamilə qalıb. Takayasu endoarteriit xəstəliyi ilə hamilə qalan xanımların 53%-də fəsadlar görünür. Bunlardan biri təzyiqin daha da artması, preeklampsiya xəstəliyin inkişafı, erkən aylarda düşüklərin olması, ana bətnində dölün inkişaf ləngiməsi və hətta tələf olması kimi riskləri daşımaqdır".

Həkimin sözlərinə görə, xəstə üzərində aparılan müalicələrə baxmayaraq, preeklampsiya (müalicəyə tabe olmayan yüksək təzyiq) inkişaf edib və 34-cü həftəsini doldurub: "Bu səbəbdən də hamiləliyi kesar üsulu ilə sonlandırmaq məcburiyyətində qaldıq. Sağlam doğulan və 2160 qram çəkiyə malik olan körpə yenidoğulmuşların reanimasiyasına yatırılmışdı".

Neonatologiya şöbəsinin müdiri Səadət Yaqubovanın sözlərinə görə, körpə 6 gün reanimasiyada qalıb və vaxtından əvvəl dünyaya göz açdığı üçün müəyyən problemləri olub. Buna baxmayaraq, müasir tibbi müdaxilələrlə bütün problemlər aradan qaldırılıb və ailəsinə sağlam şəkildə təhvil verilib.

**ATU-nun mətbuat xidməti**

# İNSANLARA NUR BƏXŞ EDƏN ALİM

**Aprelin 25-də Azərbaycan Tibb Universitetində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsinə həsr edilmiş "İnsanlara nur bəxş edən alim" adlı tədbir keçirilib.**



Nəsimi rayon İcra hakimiyyəti və Azərbaycan Tibb Universitetinin birgə təşkilatçılığı ilə baş tutan tədbiri ATU-nun rektoru, professor Gəray Gəraybəyli açaraq görkəmli oftalmoloq Zərifə xanım Əliyevanın Azərbaycan səhiyyəsində, ölkəmizin tibb elminin inkişafında, həmçinin ictimai həyatında dərin iz qoymuş bir şəxsiyyət olduğunu bildirib.

Azərbaycan Tibb Universitetinin bir çox dünya şöhrətli məzunları sırasında akademik Zərifə xanım Əliyevanın xüsusi yer tutduğunu vurğulayan rektor qeyd edib ki, oftolmoloq-alim Zərifə xanım Əliyeva tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları, elmi-pedaqoji və ictimai fəaliyyəti ilə həkimlərin yeni nəslinin yetişməsinə, Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərib.

Görkəmli oftalmoloqun elmi və pedaqoji fəaliyyətindən söz açan rektor Zərifə xanım Əliyevanın bir çox nüfuzlu elmi mükafatlara, o cümlədən oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görüldüyünü diqqətə çatdırıb.

O, böyük tarixi şəxsiyyət Əziz Əliyevin ailəsində böyüyən Zərifə xanımın elmi fəaliyyəti ilə yanaşı səmimi bir insan, qayğıkeş ana kimi də daim yaddaşlarda yaşayacağını deyib.

Rektorun giriş nitqindən sonra akademik Zərifə xanım Əliyevanın həyat və fəaliyyətinin ən yadda qalan məqamlarını özündə əks etdirən foto-slayd nümayiş etdirilib.

ATU-nun oftalmologiya kafedrasının müdiri, professor Paşa Musayev (Qəlbinur) akademik Zərifə xanım Əliyevanın tələbəsi olmaqdan qürur duyduğunu söyləyərək onun elmi fəaliyyətinin əsas istiqamətlərindən birinin peşə oftalmologiyası olduğunu söyləyib: "Görkəmli alim dünyada ilk dəfə görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və praktik olaraq elm aləmində yeni bir istiqamətin-"peşə oftalmologiyası"nın əsasını qoyub".

Unudulmaz müəlliminin yüksək insani keyfiyyətlərini də məmnunluqla xatırladan professor çıxışının Zərifə xanımın vəfatının 10-cu ildönümündə Ulu Öndərin söylədiyi fikirlərlə tamamlayıb: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür..."



"Elə insanlar var ki, dünyasını dəyişəndən sonra da ömrə məna verən nur kimi qalır" deyən oftalmologiya kafedrasının dosenti Solmaz Əliyeva haqqında böyük ehtiramla danışdığı Zərifə xanımla bağlı xatirələrini bölüşüb.

Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov görkəmli oftalmoloq, respublikamızda tibb elminin inkişafına mühüm töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın anadan olmasının 94 illiyi münasibətilə Nəsimi rayonunda silsilə tədbirlərin təşkil olunduğunu bildirib: "Əlamətdar günlə bağlı idarə və təşkilatlarda görkəmli alimin xatirəsinə həsr olunmuş bir sıra tədbirlər təşkil olunmuşdur. Keçiriləcək tədbirlər çərçivəsində rayonun orta məktəblərində görkəmli oftalmoloq, tibb elmləri doktoru Zərifə xanım Əliyevaya həsr olunmuş «Azərbaycan qadını» və «Ana-müqəddəslik zirvəsidir» mövzularında inşa yazı, divar qəzetləri, bədii qiraət müsabiqələri, şagirdlərin rəsm əsərlərinin sərgiləri, məktəblərin foyelərində Azərbaycan tibb elminin görkəmli şəxsiyyəti olan, akademik Zərifə xanım Əliyevaya həsr olunmuş guşələr yaradılmışdır".

Anım tədbirinin Azərbaycan Tibb Universitetində keçirilməsinin xüsusi önəmindən danışan icra başçısı bütün gəncləri bu böyük şəxsiyyətin həyatını daha dərindən öyrənərək özlərinə nümunə seçməyə çağırıb. Əziz Əliyev kimi tarixi şəxsiyyətin ailəsində dünyaya göz açan, eyni zamanda dünya səviyyəli bir şəxsiyyətin ömür-gün yoldaşı olan, xalqımıza çox dəyərli övladlar bəxş edən Zərifə xanımın işıqlı obrazının yüksək



vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə qalacağını, onun parlaq xatirəsinin daim anılacağını və qədirbilən xalqımızın qəlbində əbədi yaşayacağını vurğulayıb.

Çıxışlar zamanı bildirilib ki, Zərifə xanım Əliyeva təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməyib, yüksək ixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirib. Taleyini tibb elminə həsr edən akademik Zərifə xanım Əliyeva oftalmologiyanın aktual problemlərinə dair tədqiqatlar aparıb, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edib, bu xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının tapılması istiqamətində böyük xidmətlər göstərib.

Tədbir çərçivəsində Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən fiziki qüsurlu şagirdlərin təhsil aldığı 11 və 268 saylı xüsusi məktəblərin şagirdlərinin pulsuz tibbi müayinəsi təşkil edilib, ATU-da keçirilən tədbirdə müayinədən keçmiş uşaqlara eynəklər təqdim olunub.

**A.KAMRANOĞLU**

**Fotolar Cənnətalı Çingizindir**

## ATU rəhbərliyi Suraxanıda akademik Zərifə xanım Əliyevanın anadan olmasının 94-cü ildönümünə həsr edilmiş tədbirdə iştirak edib

**◆ Azərbaycanın ən parlaq və tanınmış simalarından olan görkəmli oftalmoloq-alim, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 94-cü ildönümü münasibəti ilə Suraxanı rayonunda silsilə tədbirlər keçirilir.**





Suraxanı rayonu Heydər Əliyev Mərkəzinin, Azərbaycan Tibb Universitetinin, Rayon İcra Hakimiyyətinin və YAP Suraxanı rayon Təşkilatının birgə təşkilatçılığı ilə Mərkəzdə "Zərifə Əliyeva - böyük filosof, gözəl pedaqoq, qayğıkeş insan" mövzusunda konfrans keçirilib.

Konfrans iştirakçıları Ulu Öndərin Heydər Əliyev parkında ucalan abidəsini ziyarət etdikdən sonra Suraxanı rayonundakı Heydər Əliyev Mərkəzi ilə tanış oldular, Mərkəzdə görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın anadan olmasının 94-cü ildönümü münasibəti ilə yaradılmış guşədə qoyulmuş büstü önünə tər güllər düzdülər, kitab sərgisinə baxdılar.

Tədbir Mərkəzin elektron lektoriya zalında davam etdirildi. Konfrans iştirakçıları Zərifə xanım Əliyeva haqqında filmə baxdıqdan sonra rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov konfransı açaraq qeyd etdi ki, tariximizdə silinməz iz qoymuş, Azərbaycanın ən parlaq və tanınmış simalarından olan əməkdar elm xadimi, tibb elmləri doktoru, akademik, görkəmli oftalmoloq-alim, ictimai xadim Zərifə xanım Əliyevaya əbədiyaşarlıq qazandıran onun nəcib niyyəti, xeyirxah əməlləri, vətən naminə gördükləri böyük işlərdir. Bugünkü konfrans da Zərifə xanımın əziz xatirəsinə sonsuz ehtiramın ifadəsidir. Dünya şöhrətli alim, bacarıqlı həkim, gözəl insan Zərifə xanım Əliyevanın adı əbədiyyət ünvanında həmişəlik qərar tutub.

Konfransda çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru, tibb elmləri doktoru, professor Gəray Gəraybəyli qeyd etdi ki, akademik Zərifə xanım Əliyeva intellektual keyfiyyətləri özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq alimdir. Zərifə xanım Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Onun elmi fəaliyyəti çox zəngin və əhatəli olmuşdur. İstedadlı alim kimi oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb və dəyərli elmi-tədqiqat işləri yazıb. Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım özünün tədqiqat işlərini traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə traxomanın və onun ağır nəticələrinin müalicəsi zamanı o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə həsr edib.

Konfransda məruzə ilə çıxış edən Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının müdiri, professor Paşa Musayev Qəlbinur qeyd etdi ki,

(davamı səh. 5-də)

# ATU Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki konfransı keçirildi

**Aprelin 27-də Azərbaycan Tibb Universiteti Həmkarlar İttifaqı Komitəsinin XIII hesabat-seçki konfransı keçirildi.**

"2012-2016-cı illərdə ATU-nun Həmkarlar İttifaqı Komitəsinin fəaliyyəti haqqında" komitənin sədri, dosent Cahangir Qasımovun hesabatı dinlənildi.

Son 5 il ərzində komitə tərəfindən görülən işlər haqqında ətraflı məlumat verən C.Qasımov Həmkarlar İttifaqı Komitəsinin XIII hesabat-seçki konfransının çox əlamətdar bir zamanda keçirildiyini bildirdi: "Ulu Öndər Heydər Əliyevin başladığı və onun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi kurs Azərbaycan xalqının maddi rifahının durmadan yaxşılaşmasına yönəlib. Bunun nəticəsidir ki, dünyanın üzləşdiyi qlobal maliyyə-iqtisadi böhran şəraitində Azərbaycan nəinki özünün iqtisadi inkişaf tempini qoruyub saxlaya bildi, hətta sürətli artıma görə dünyada birincilər sırasında qalmaqda davam edir".

Həmkarlar İttifaqı Komitəsinin rektorluqla öz münasibətini müvafiq qanunlara və Əmək Məcəlləsinə əsasən bağlanan kollektiv müqavilə əsasında qurduğunu deyən C.Qasımov qeyd etdi ki, AHİK və Nazirlər Kabineti arasında bağlanan "Baş Saziş", Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi ilə Səhiyyə Nazirliyi arasında bağlanmış "Sahə sazişi"nin şərtləri əsasında bağlanan bu müqavilədə əməkdaşlarımızın sosial-iqtisadi problemlərinin həlli, məzuniyyətlər, qadınların əməyi və digər sahələrdə əlavə imtiyazlar nəzərdə tutulur.

Komitə sədri onu da vurğuladı ki, hesabat dövrü ərzində Azərbaycan Tibb Universiteti Həmkarlar İttifaqı Komitəsi yeni klinikaların açılışı ilə əlaqədar öz sıralarını daha da artırmışdır: "Bu gün təşkilatımız öz sıralarında 3500 nəfərdən çox həmkarlar ittifaqı üzvünü birləşdirən ən iri ali məktəb təşkilatlarından birinə çevrilmiş, klinika həmkarlar ittifaqı təşkilatları yaradılmışdır. Hazırda Universitet Həmkarlar İttifaqı Komitəsinin rəhbərliyi altında 6 fakültə, 4 klinika, 1 Elmi-Tədqiqat Mərkəzi və 1 inzibati-təsərrüfat işçiləri həmkarlar ittifaqı təşkilatı, 96 qrup təşkilatı fəaliyyət göstərir".



Hesabatda əməkdaşların iş şəraitinin yaxşılaşdırılması, sağlamlığının qorunması, əməyinin mühafizəsi məsələləri də əhatəli şəkildə öz əksini tapdı. Aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün rektorluqla birgə görülən tədbirlər üzərində



xüsusi dayanıldı. Hörmətli rektorumuz, professor Gəray Gəraybəylinin tapşırığı ilə kafedra və bölmələrdə aparılan reydlərin nəticələrinə toxunuldu. Bununla yanaşı tədris binalarında və yataqxanalarda aparılan əsaslı təmir-tikinti işlərinin də həmişə həmkarlar ittifaqı komitəsinin diqqət mərkəzində saxlanıldığı qeyd olundu.

Məruzəçi indiki dövrdə əməkdaşların istirahətinin təşkilinin əhəmiyyətini diqqətə çatdıraraq "Təbib" istirahət düşərgəsinin imkanlarından geniş istifadə olunduğunu, 2017-ci ildən isə əməkdaşların düşərgədə istirahətini daha yaxşı təşkil etmək məqsədilə müasir standartlara uyğun yeməkxananın tikintisinə başlanıldığını bildirdi.

Hesabat dövrü ərzində Universitet Həmkarlar İttifaqı Komitəsinin təşkilati baxımdan da təkmilləşdirildiyini söyləyən C.Qasımov hələ qarşıda daha gərgin, işgüzar ve islahatlar tələb edən bir dövrün, ciddi vəzifələrin durduğunu xatırladtı, yeni seçiləcək heyətə uğurlar arzuladı.

Bundan sonra Universitet Həmkarlar İttifaqı Komitəsi Təftiş Komissiyasının sədri, dosent Faiq Qapaqov Təftiş Komissiyasının hesabatını konfrans iştirakçılarının nəzərinə çatdırdı.

Daha sonra insan anatomiyası kafedrasının müdiri, professor Vaqif Şadlinski, Elmi-Tədqiqat Mərkəzinin direktoru, professor Qalib Qarayev, epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev, travmatologiya və ortopediya kafedrasının müdiri, professor Əhməd Əhmədzadə, tibbi biologiya və genetika kafedrasının müdiri, professor Canbaxış Nəcəfov çıxış edərək hesabatı qənaətbəxş qiymətləndirdilər. C.Qasımovun təcrübəli bir təşkilatçı olduğunu, həmçinin qarşıda duran problemlərin, ən əsası əməkdaşların sosial hüquqlarının qorunması, istirahətinin təşkili, iş şəraitinin yaxşılaşdırılması kimi məsələlərin öhdəsindən bacarıqla gəldiyini önə çəkdilər və öz təkliflərini səsləndirdilər. V.Şadlinski əmək intizamının yaxşılaşdırılması məqsədilə aparılan reydlərin nəticələri barədə universitetin qəzetində məlumat verməyi təklif etdi. O, nəzəri kafedralarda çalışan professor-müəllim heyəti ilə kliniki kafedralarda çalışan professor-müəllim heyəti arasındakı əmək haqqı uyğunsuzluğundan da söhbət açdı, eyni zamanda əməkdaşların universitet klinikalarında güzəştli şərtlərlə müayinəyə cəlb edilməsini məqsədəuyğun saydı.

Konfransda çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli də Həmkarlar İttifaqı Komitəsinin 5 illik fəaliyyətini müsbət qiymətləndirərək bir sıra məsələlərə münasibətini açıqladı: "Hesabat və çıxışlarda mənim tapşırığımla aparılan yoxlamalara toxunuldu və deyim ki, məqsəd kimlərisə cəzalandırmaq deyil, ədalət prinsipinin qorunmasıdır. Amma bəzi tədbirlər də görməyə məcburuq. Əmək intizamını pozduqlarına və yol verdikləri nöqsanlara görə 12 nəfər universitetdən xaric edilib, bu ilin əvvəlindən isə 2 nəfər öz ərizəsi ilə işdən azad olunub".

Yeni klinikaların yaradılması ilə universitetimizin dünya universitetləri ilə bir sırada durduğunu vurğulayan rektor diqqətə çatdırdı ki, həm müasir diaqnostika metodları, həm maliyyə məsələlərinin həlli, həm də tələbələr üçün tədrisin yaxşılaşdırılması baxımından klinikalar universitetə kömək etməlidir.

Tələbələrin asudə vaxtlarının daha səmərəli keçirilməsi üçün bir neçə istiqamətin olduğunu bildirən universitetin rəhbəri idman klubunun normal vəziyyətə gətirilməsi, müxtəlif kütləvi tədbirlərin, Qarabağ qəhrəmanları ilə görüşlərin təşkili məsələləri ilə bağlı tövsiyələrini verdi. Rektor həmçinin gənc ailələr üçün kooperativ binaların inşa edilməsi təklifinə də aydınlıq gətirərək qeyd etdi ki, hələlik prioritet məsələ universitetin yataqxanasında məskunlaşan məcburi köçkünlər üçün daha normal həyat şəraiti yaratmaqdır. Yalnız müvafiq qurumlar qarşısında qaldırılan bu problem öz həllini tapdıqdan sonra kooperativ binanın tikilməsi barədə təklifə baxa bilərik.

ATU-ya sadəcə iş yeri kimi yox, doğma universitet kimi baxan hər bir müəllimin, həkimin Həmkarlar İttifaqı Komitəsi ilə sıx iş birliyi qurmasının vacibliyini önə çəkən rektor hər bir uğurlu fəaliyyətin bütövlükdə universitetin tərəqqisinə yönəldiyini vurğuladı.

Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Emin Əfəndiyev ATU Həmkarlar İttifaqı Komitəsinin sədr müavini, dosent Qəhrəman Rüstəmovu səmərəli fəaliyyətinə görə "Fəxri fərman"la mükafatlandırdı.

Sonda konfrans iştirakçıları Həmkarlar İttifaqı Komitəsinin 25 nəfər və Həmkarlar İttifaqı Komitəsinin Təftiş Komissiyasının 7 nəfərdən ibarət yeni tərkibini seçdilər. Açıq səsvermə yolu ilə yenidən Həmkarlar İttifaqı Komitəsinin sədri seçilən dosent Cahangir Qasımov eyni zamanda Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinə birbaşa üzv və Səhiyyə İşçiləri Həmkarlar İttifaqının III qurultayına nümayəndə seçildi.

**Arif MƏMMƏDLİ**

(əvvəli səh. 4-də)

# ATU rəhbərliyi Suraxanıda akademik Zərifə xanım Əliyevanın anadan olmasının 94-cü ildönümünə həsr edilmiş tədbirdə iştirak edib

Zərifə xanım Əliyeva cismən aramızda olmasa da, hər birimiz onu sonsuz hörmət və məhəbbətlə xatırlayırıq. O, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmişdir. Çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş, "Yüksək etimad" kitabı cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə olmuşdur. Fərəhlə deyə bilərik ki, akademik Zərifə xanım Əliyevanın ardıcılları onun ideyalarını daim yaşadır və uğurla davam etdirirlər. Onun elmi əsərləri, tədqiqatları, çoxsaylı kitabları yaşadığı 62 illik ömrünə sığmır. İşıqlı xatirəsi bu gün də insanların yaddaşında yaşayır. Zərifə xanımın əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir.

Məruzə ətrafında Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının dosenti Solmaz Əliyeva, Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, Milli Məclisin deputatı Ağacan Abiyev çıxış etdi.

Konfransın işini yekunlaşdıran rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov qeyd etdi ki, məruzədə və çıxışlarda da qeyd olunduğu kimi, Zərifə xanım Əliyeva Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir, gənc kadrların hazırlanmasında çox geniş fəaliyyət göstərmişdir. Eyni zamanda, insanların görmə qabiliyyətinə mənfi təsir göstərən istehsalatlarda onun laboratoriyaları fəaliyyət göstərmişdir. Bu laboratoriyalarda bir tərəfdən insanların sağlamlığına zərərli istehsalların təsiri öyrənilib, eyni zamanda, xəstələrin müalicəsi də təşkil edilib.

Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, eyni zamanda, yüksək mədəniyyət, alicənablıq – bütün bu gözəl amillər onda birləşmişdi.

İlqar Abbasov xüsusi vurğulamışdır ki, Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Amma bu adların sırasında ən şərəflisi "Ana" adıdır.

Zərifə xanım Azərbaycana cənab İlham Əliyev kimi Prezident bəxş edən bir ana olaraq hər zaman tarixdə qalacaqdır. Ölkəmizin sürətli inkişafı, dünyadakı nüfuzu, möhtəşəm uğurları ilə fəxr edərkən, Azərbaycan Prezidentinin bilik və bacarığının, qətiyyət və müdrikliyinin təməlində Ulu Öndər Heydər Əliyev ilə yanaşı, sözsüz ki, Zərifə xanımın da əməyi böyükdür.

Sonda Azərbaycan Tibb Universitetinin rektoru, tibb elmləri doktoru, professor Gəray Gəraybəyliyə Suraxanı rayonu Heydər Əliyev Mərkəzinin xatirə hədiyyəsi təqdim olundu.

**ATU-nun mətbuat xidməti**

# Qadınların təhsilli olması daha vacibdir

**• Aprelin 19-da Azərbaycan Tibb Universitetində "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bugünümüzün və gələcəyimizin dayağıdır" mövzusunda tədbir keçirilib.**

Bu tədbir YAP Qadınlar Şurası, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tələbələrlə görüşü çərçivəsində baş tutub. Bunu silsilə görüşlərdən biri hesab etmək olar.

Tədbirin açılışında ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev Azərbaycanda ictimai həyatda, ailədə qadına verilən yüksək qiymət barəsində söz açıb: "Azərbaycan qadınları dövlətin idarə edilməsi də daxil olmaqla, bütün sahələrdə aktiv fəaliyyət göstərirlər. Hər bir ailənin intizamlı-nizamlı həyatında, ümumilikdə cəmiyyətin inkişafında qadınların müstəsna yeri var. Bizim ölkəmizdə fəaliyyət göstərən oftalmoloq alimlər arasında xüsusi yeri olan görkəmli elm xadimi Zərifə Əliyeva bu sahə üzrə ilk qadın akademik olub. Tanınmış oftalmoloq-alim Zərifə xanım Əliyeva yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülüb. Olduqca gözəl mədəniyyətə malik olan görkəmli alim tibb sahəsində böyük xidmətlər göstərib, monumental əsərlər sahibi olub".



S.Əliyev xatırladıb ki, məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Azərbaycnda ilk dəfə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Ölkəmizdə bütün dövrlərdə çox savadlı, fədakar qadınlar çalışıb və indi də çalışmaqdadır.



YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı çıxışında qadınları nəslimizin bugünü, keçmişi və gələcəyi adlandırıb: "Qadınlar haqqında nə qədər danışsaq da, yetməz. Qadın üçün anadan uca bir ad yoxdur. Bu gün Azərbaycan gəncliyi də qadınlara verilən dəyəri anlamalıdır. Digər tərəfdən, sizin əsas vəzifəniz tibbi biliklərə yetirincə yaxşı yiyələnmək, gələcəkdə peşəkar həkim, savadlı bir insan olmaqdır". Millət vəkili qeyd edib ki, tələbələr Azərbaycanı və millətimizi bütün dünyada layiqincə təmsil və təbliğ etməlidirlər.

Millət vəkili Qənirə Paşayeva öz çıxışında Tibb Universitetinin məzunu kimi tələbələrə özünün təhsil illəri haqqında xatirələrindən danışıb: "Mən də bu universitetin tələbəsi olmuşam. Oxuduğum illərdə ATU bu vəziyyətdə deyildi, heç mənim ailəm də sizin ailələriniz kimi deyildi. İndiki nəsil isə bu baxımdan çox şanslıdır". Q.Paşayeva vurğulayıb ki, indiki nəsil müstəqil Azərbaycanın, onun bütövlüyü üçün var gücüylə çalışmalıdır: "Yoxsa, nə tarix, nə də gələcək nəsil sizi bağışlamayacaq. Digər tərəfdən, ən güclü vətənpərvər özünü təhsilə verən şəxsdir. Bu gün vətən üçün edə biləcəyiniz ən vacib əməl-yaxşı oxumaqdır".

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin gender şöbəsinin baş məsləhətçisi Sevinc Əlizadə isə öz çıxışında ölkəmiz müstəqillik qazandığı ilk illərdə ictimai həyatda qadınlara qarşı münasibətin birmənalı olmadığını bildirib. Bu gün Azərbaycan qadınının daha güclü və mübariz olduğunu söyləyən S.Əlizadə gənclər üçün təhsilin əsas amil olduğunu qeyd edib: "Qadın üçün təhsil daha vacibdir. Çünki qadın, heç kimə inanmadan öz ayaqları üstündə dayanmağı, sabah həyatda tək qalarsa, o, özünü və övladlarını ayaqda saxlamağı bacarmalıdır".

Aprel döyüşlərində şəhid olmuş polkovnik Raquf Orucovun həyat yoldaşı Sevinc Əlizadə hər kəsə daha mübariz olmağı tövsiyə edib.

Tədbir zamanı ATU-nun əczaçılığın texnologiyası və idarəçəliyi kafedrasının baş müəllimi Aidə Bəndəliyeva iştirakçılarla mövzu haqqında fikirlərini bölüşüb. Toplantıda Azərbaycan qadınlarının idarəetmədə, siyasi və ictimai həyatındakı rolundan, onların aktiv fəlaiyyətindən, bu sahələrdə mövcud olan problemlərdən söz açılıb.

# "Revmatoloji xəstəliklərin müasir diaqnostika və müalicə metodları" mövzusunda konfrans keçirilib

**Aprelin 18-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında "Revmatoloji xəstəliklərin müasir diaqnostika və müalicə metodları" mövzusunda konfrans keçirilib.**





Konfransı giriş sözü ilə açan direktorun müalicə işləri üzrə müavini Adil Nuriyev bildirib ki, revmatoloji xəstəliklər təkcə tibbi deyil, həm də sosioloji problemdir: "Bu xəstəlikdə insanlar əsasən əmək qabiliyyətini itirirlər. Ona görə bu xəstəliklərin vaxtında diaqnostikası və müalicəsi xəstəliyin proqnozunu və həmin xəstələrin əmək qabiliyyətini müəyyənləşdirir. Ümumiyyətlə, revmatoloji xəstəliklərin 200-dən çox nozoloji vahidi var, buna görə də ən aktual problemlərdən sayılır. Təkcə ABŞ-da revmatik xəstəliklərə çəkilən xərclər hipertoniya və şəkərli diabet xəstəliyinə çəkilən xərclərdən 5-6 dəfə çoxdur. Dünyanın bütün coğrafi zonalarında demək olar ki, revmatoid artirit xəstəliyinə rast gəlinir. Hazırda bu xəstəliyin müasir müalicə metodları var və insanlar bunun sayəsində onda olan xəstəliyi tez bir zamanda aşkarlaya bilirlər".

Tədbirdə klinikanın Revmatologiya və qastroenterologiya şöbəsinin müdiri, professor Sahib Musayev "Revmatoloji xəstəliklərdə xroniki ağrı sindromun müalicəsi" mövzusu ilə çıxış edib.

S.Musayev qeyd edib ki, revmatik xəstəliklər bəşər tarixinin ən ciddi xəstəliklərindən biridir: "Dünya əhalisinin təqribən 1,2%-i bu xəstəlikdən əziyyət çəkir. Azərbaycanda isə təqribən 100 mindən artıq insan revmatoid artiritlidir. Bu xəstəlik hər bir insanın həm ailəsi, həm də özü üçün sosioloji problemdir. Revmatik xəstəliklərdə ağrı ilə müşayiət olunan çoxlu nozoloji forma vardır.

Cəmiyyətdə elə bir insan yoxdur ki, onda 40 yaşından sonra ağrı sindromu olmasın. Bu da faiz göstəricisi ilə 85% təşkil edir. Ağrı kəskin və xroniki ağrı ilə xarakterizə olunur. Kəskin ağrını dərman vasitələri ilə aradan qaldırmaq olur, amma ağrı xroniki olduqda isə artıq bu, simptom deyil, xəstəlikdir.

Revmatik xəstəliklərdə ağrıların nozoloji vahidlərinə gəlincə, burada birinci yeri bel ağrıları tutur.

"İkinci yerdə isə belin aşağı hissəsinin və diz ağrıları qərarlaşır. Bu da çox geniş yayılmış xəstəlikdir. Qadınlar arasında ən çox yayılmış xəstəlik isə ostreartoz, yəni diz ağrılarıdır. Kişilərdə isə budçanaq oynağının zədələnməsi üstünlük təşkil edir.

İdmançılar arasında da ostreoartoz xəstəliyi geniş yayılıb.

Azərbaycanda padaqra çox geniş yayılmış xəstəliklər sırasına daxildir. Bu xəstəlik ən çox hündürdaban ayaqqabı geyinən xanımlar arasında, əsasən də menapauzadan sonrakı dövrdə baş verir. Qadınlarda klassik padaqra ilk olaraq dizdən başlayır.

Maraqlı bir fakt ondan ibarətdir ki, dünyanın ən dahi insanlar-Napoleon, Motsart, Puşkin və başqa məşhurlar bu xəstəliyə tutulub".

Daha sonra fizioterapiya və idman kafedrasının dosenti Paşa Mehdiyevin "Revmatoloji xəstəliklərin müalicəsində fiziki üsulların tətbiqi" mövzusunda çıxışı dinlənilib.

O bildirib ki, bu, təbabətin ən aktual problemlərindən biridir və hətta, gənc yaşda insanların əlil olmasına qədər gətirib çıxarır: "Revmatoloji xəstəlik insanların həyat keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Ona görə də xüsusi diqqət, qayğı, müayinə və müalicə tələb edir. Burada istənilən müalicə üsulu həmin insanın həyat keyfiyyətinin yaxşılaşmasına səbəb olursa, bunu nailiyyət kimi qiymətləndirmək olar. Revmatoloji xəstəliklərdə fiziki amillərdən istifadə etdilmədikdə o müalicənin keyfiyyəti çox aşağı olur".

P.Mehdiyev fizioterapiyada ən çox istifadə olunan müalicə üsulları barəsində danışaraq, qeyd edib ki, burda xəstəliyin aktivlik dərəcəsinə önəm verilir.

"Naftalan nefti ilə terapiya dünyada analoqu olmayan müayinə üsuludur. Masaj, mineral sularla müalicə də effektiv müalicə üsullarından biri sayılır və geniş istifadə olunur".

Tədbirin davamında həkim-laborant Nurlanə Mamyayeva "Revmatoloji xəstəliklərin laborator diaqnostikası" mövzusunda çıxış edib.

O, bildirib ki, müasir standartlara cavab verən Tədris Terapevtik Klinikanın laboratoriyası ən yeni cihazlarla təmin olunub və geniş xidmət sahəsinə malikdir.

**ATU-nun mətbuat xidməti**

# Fakültələrdə Tələbə elmi konfransları

*Aprelin 28-də Əczaçılıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib.*





Tədbiri fakültə üzrə TEC-in sədri, dosent Nərgiz Məmmədova açaraq konfransda 8 tələbənin çıxışının nəzərdə tutulduğunu, 3 tələbənin mükafatlandırılacağını bildirib.

Fakültənin dekanı, professor Tahir Süleymanov konfrans iştirakçılarına universitetin əsas məqsədinin yüksək ixtisaslı kadrlar hazırlamaq olduğunu deyib: "Bizim bu məqsədlə birinci işimiz yüksək səviyyədə tədrisi həyata keçirməkdir. Lakin tədrisin keyfiyyətini yüksəltmək üçün elmi işlər müstəsna əhəmiyyət kəsb edir. Bu, istər professor-müəllim heyəti üçün, istərsə də bizim tələbə kollektivi üçündür. Yeni elmi işlə məşğul olmaq tələbələr üçün öz üzərlərində daha da çox çalışmaq deməkdir. TEC-in işinə həmişə çox ciddi önəm verişik. Burada əsas məqsəd yaxşı oxuyan, elmi biliklərə malik olan tələbələri gələcəkdə göz önünə çıxarmaqdır".

T.Süleymanov həmçinin bütün iştirakçıları qalib adlandırdı: "Bu gün məğlub olan olmayacaq. İştirak edənlərin hamısı qalib hesab edilir. Hamınıza uğurlar diləyirəm".

Sonra konfrans tələbələrin müxtəlif mövzularda etdikləri elmi işlərin mühazirəsi ilə davam edib.

Konfransın sonunda qaliblər elan olunub. 5 nəfərdən ibarət münsiflər heyətinin seçiminə görə, İctimai fənnlər kafedrası üzrə I kurs tələbəsi Gülçin Tanrıverdiyeva I yerə ("Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Respublikasının milli iqtisadiyyatının qurucusudur"), Farmakoqnoziya və botanika kafedrası üzrə III kurs tələbəsi Firuzə Məmmədova II yerə ("Göyçək köpükotu bitkisinin bəzi farmokoqnostik tədbiqi"), Latın dili kafedrası üzrə I kurs tələbəsi Tamilla Qəhrəmanzadə isə III yerə ("Latın dilinin hind-avropa dillərinin tibbi terminologiyasına təsiri") layiq görülüblər. Qaliblərin hər biri diplom və hədiyyələrlə təltif olunub.

**Bu günlərdə tibbi-profilaktika fakültəsinin 41-ci tələbə-elmi konfransı keçirilib. Konfrans 3 bölmə üzrə fəaliyyət göstərib. Bunlar mikrobiologiya və immunologiya, epidemiologiya, yoluxucu xəstəliklər və ftiziatriya, gigiyena və biokimya bölməsidir.**



Toplantının əvvəlində tibb elmləri doktoru, Azərbaycan Tibb Universitetinin Tibbi-Profilaktika fakültəsinin dekanı Anar Ağayev çıxış edərək konfransın işinə uğurlar arzulayıb. O, konfransın tələbələr üçün böyük fayda gətirəcəyindən əminliyini bildirib.

Mikrobiologiya və immunologiya, epidemiologiya, yoluxucu xəstəliklər və ftiziatriya bölməsində - 7, biokimya bölməsində - 7, gigiyena bölməsində - 10 məruzə təqdim edilib. Konfransın sonunda tədqiqat işini müvəffəqiyyətlə məruzə edib yer tutan tələbələrə diplomlar, digər tələbələrə isə sertifikatlar təqdim edilib.

Bununla yanaşı, bu il Tələbə Elmi Cəmiyyətinin işində yaxından iştirak edən və tələbə işinə rəhbərlik edən müəllimlər də diplomlarla təltif olunublar.

**Aprelin 28-də Hərbi Tibb Fakültəsinin tələbə elmi cəmiyyətinin elmi konfransı keçirilib. Toplantıda HTF rəisi Ç.Əlləzov, HTF rəisinin elmi işlər üzrə müavini P.Məmmədov və kafedra rəisləri iştirak edib.**



Toplantının əvvəlində HTF rəisinin elmi işlər üzrə müavini P.Məmmədov çıxış edərək bildirib ki, fakültədə 2 ildir fəaliyyət göstərən tələbə elmi cəmiyyəti hərbi həkimlərimizin gələcək elmi inkişafına böyük töhvə verir. Müraciət edən tələbələrimizin sayı ildən-ilə artmaqdadır. Bu gün atılan addımlar gələcəyin təminatıdır.

Elmi konfransada ümumilikdə 11 nəfər olmaqla 4 nəfər V kurs kursantı, 4 nəfər IV kurs və 3 nəfər III kurs tələbəsi iştirak edib. Konfransın sonunda tələbələrə diplomlar təqdim olunub. Tədbirin sonunda kafedra rəisləri kursantlara və tələbələrə öz tövsiyələrini verərək gələcək elmi fəaliyyətlərində onlara uğurlar arzu ediblər.

**Aprelin 14-də I müalicə-profilaktika fakültəsinin nəzəri təbabət bölməsi üzrə Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib. Tədbiri fakültənin dekanı, dosent Qorxmaz Əhmədov açıq elan edərək münsiflər heyətini tədbir iştirakçılarına təqdim edib və tələbələrə uğurlar arzulayıb.**



Söz fakültə üzrə Tələbə Elmi Cəmiyyətinin sədri, II kurs tələbəsi Lamiyə Adışirinliyə verilib. Sədr iştirakçıların elmi işlərini təqdim edərək tələbələri çıxışa dəvət edib.

Konfransda müxtəlif elmi mövzulara aid 14 məruzə dinlənilib. Münsiflər heyətinin rəyinə əsasən 203b qrupun tələbəsi Ləman Şıxverdizadə, 168b qrupun tələbəsi Xəzanə Əzimzadə, 115b qrupun tələbəsi Hüseynxan Hüseynov, 1a qrupun tələbələri Nərmin Abuşova və Ulduz Ədilova dipolomlar verilib , digər tələbələrə isə sertifikatlar təqdim olunub.

**Leyla SÜLEYMANOVA**
*Tibbi biologiya və genetika kafedrası üzrə TEC-in sədri*

# Elxan Emin oğlu Kərimov

**Azərbaycan tibb elminə ağır itki üz vermişdir. Görkəmli alim, əməkdar həkim, əməkdar elm xadimi, Azərbaycan Tibb Universitetinin ortopedik stomatologiya kafedrasının mələhətçi-professoru Elxan Emin oğlu Kərimov ömrünün 79- cu ilində dünyasını dəyişmişdir.**



Elxan Kərimov 1938-ci il noyabrın 23-də respublikamızın dilbər guşələrindən biri olan Göyçay şəhərində dünyaya gəlmişdir. O, 1956-cı ildə 3 saylı Göyçay şəhər orta məktəbini bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun stomatologiya fakültəsinə daxil olmuş, bu ali tədris ocağını fərqlənmə diplomu ilə bitirmişdir. 1967-ci ildə Kiyev Tibb İnstitutunun aspiranturasını başa vurmuşdur. 1968-ci ildə namizədlik, 1990-cı ildə isə doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. 1991-ci ildən professor elmi adını daşıyan E.Kərimov apardığı tədqiqatları ilə tibb elminə yeniliklər gətirmişdir. O, terapevtik və ortopedik stomatologiya sahəsində yeni müalicə üsulları, Ukrayna alimləri ilə birlikdə kariyes və parodont xəstəliklərinin yodlu- flüorlu xörək duzu ilə kütləvi profilaktika növü, qalxanabənzər vəzin müxtəlif xəstəliklərindən parodont xəstəliklərinin əmələ gəlmə mexanizminin öyrənilməsi, müxtəlif protezlər və protez materiallarının ağız boşluğuna və orqanizmə təsiri kimi əhəmiyyətli və səmərəli sayılan tədqiqatları ilə elmi nəticələrə nail olmuşdur.

Professor E.Kərimov Azərbaycan tibb elminin nailiyyətlərini beynəlxalq aləmdə də layiqincə tanıtdırmışdır. Görkəmli alim 250-dən artıq elmi məqalənin, ixtira və səmərələşdirici təkliflərin müəllifi olmuşdur. O, 25 elmlər və fəlsəfə doktorunun elmi rəhbəri olmuşdur. Fədakar alim stomatologiya ixtisası üzrə çap edilmiş bir çox monoqrafiya və dərsliklərin elmi redaktoru olmuşdur.

E.Kərimov müxtəlif illərdə stomatologiya fakültəsinin dekanı, universitetin elmi katibi, Ali Attestasiya Komissiyasının Stomatologiya üzrə ixtisaslaşdırılmış şurasının sədri olmuş, 1990-cı ildən ömrünün son illərinə qədər ortopedik stomatologiya kafedrasına rəhbərlik etmişdir. 2016-cı ilin noyabrında universitetin Böyük Elmi Şurasının qərarı ilə ortopedik stomatologiya kafedrasının mələhətçi-professoru seçilmişdir.

Professor E.Kərimovun Azərbaycan tibb elminin və səhiyyəsinin inkişafındakı mühüm xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. O, 2000-ci ildə "Əməkdar həkim", 2010-cu ildə isə "Əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüşdür.

Ömrünü elmə, insanların sağlamlığına həsr edən müdrik şəxsiyyət, fədakar alim, gözəl ailə başçısı, qəlbi humanist duyğularla dolu olan professor Elxan müəllimin işıqlı xatirəsi doğmalarının və onu yaxından tanıyanların yaddaşında əbədi yaşayacaqdır.

Allah rəhmət eləsin, qəbri nurla dolsun!!

*Ortopedik stomatologiya kafedrasının kollektivi*

# Türkiyə vətəndaşı olan azərbaycanlı kardioloq-aritmoloq ölkəmizdə çalışmaq niyyətindədir

**Türkiyəli kardioloq-aritmoloq Enes Elvin Gül Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının qonağı olub.**



Kardiologiya şöbəsinin müdiri Fərid Əliyevlə görüşən Enes Elvin Gül ürək-damar mərkəzinin iş fəaliyyəti ilə tanış olub, yaradılan şəraitin müasir standartlara cavab verdiyini və gələcəkdə Azərbaycanda çalışmaq niyyətində olduğunu bildirib.

Qeyd edək ki, Enes Elvin Gül 1983-cü ildə Azərbaycanda anadan olub. 2008-ci ildən Türkiyə vətəndaşlığını qəbul edib və orada kardioloq-aritmoloq kimi fəaliyyət göstərir. Azərbaycan, rus, ingilis və alman dillərində səlis danışır, milli nəşrlərdə yayımlanan məqalələrin müəllifidir.

**ATU-nun mətbuat xidməti**

# Alimlər gəncliyi qoruyub saxlamağın yolunu tapıblar

**Harvard Universitetinin mütəxəssisləri irsi faktora baxmayaraq, gəncliyi qoruyub saxlamaq vasitələrindən danışıblar.**



AZƏRTAC "Peterburqskiy dnevnik" saytına istinadla xəbər verir ki, alimlərin fikrincə, xarici görünüşün yaşla əlaqədar dəyişməsində aparıcı rol heç də həmişə genlər oynamır. Eksperimentdə genetik məlumatlarının əlverişsiz olmasına baxmayaraq, xarici görünüşünü gənc saxlamağa müvəffəq olan xanımlar iştirak edib. Onlar bir qayda olaraq sağlam həyat tərzi keçirib, yaxşı qidalanıb və doyunca yatıblar.

Eksperimentin nəticəsində alimlər gəncliyi qoruyub saxlamağın formulunu müəyyən ediblər: gündə azı 7 saat dincəlmək, idmanla məşğul olmaq, müntəzəm olaraq dərini nəmləndirmək və günəşli havada eynək taxmaq. Belə ki, sabit fiziki fəallıq uzun müddət gənc qalmaq şansını 14 faiz, vitaminlər 18 faiz, yaxşı yuxu isə 10 faiz artırır.

# ATU-nun yəmənli tələbəsi yarışmanın qalibi olub

- **Azərbaycan Tibb Universitetinin yəmənli tələbəsi Saleh Altahery ölkəmizdə ilk dəfə əcnəbi tələbələr arasında keçirilən “Əcnəbi tələbələrin fikir platforması” adlı TEDx formatlı yarışmada yer tutub. Əcnəbi tələbə “ən yaxşı natiq” nominasiyası üzrə təltif olunub. Qalibə mükafatı ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalov təqdim edib.**





Qeyd edək ki, yarışma Bakı Beynəlxalq Tələbə Klubunun təşkilatçılığı, Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun maliyyə və ADA Universitetinin Magistr Tələbə Hökumətinin texniki dəstəyi ilə təşkil olunub. Layihənin əsas məqsədi əcnəbi tələbələrə müşahidə etdikləri, yaşadıqları, ümumiyyətlə bölüşmək istədikləri hər hansı mövzunun heç kəsə bəlli olmayan, ən maraqlı məqamlarını münsiflər heyəti və auditoriya qarşısında paylaşmaqdır.

Layihənin yarımfinal mərhələsi aprelin 13-də keçirilib. Yarımfinal mərhələsində 15 ölkədən 10 universitetin 30-a yaxın iştirakçısı yarışıb. Bu ölkələr arasında Peru, İraq, Kamerun, Myanmar, Türkiyə, Rusiya, Ukrayna, Polşa, Nigeriya, Yəmən, Suriya və Mozambikdən olan tələbələr iştirak edib.

Auditoriyanın marağına, təəccübünə səbəb olan çıxışlar münsiflər heyəti tərəfindən 5 ballıq sistemlə qiymətləndirilib. Beləliklə, münsiflər heyətinin qərarına əsasən iştirakçılardan yanlız 9 nəfəri finala vəsiqə qazanıb.

Yarışmanın final mərhələsi aprelin 25-də ADA Universitetində baş tutub. Final mərhələsində Türkiyə, Rusiya, Ukrayna, Polşa, Nigeriya, Yəmən, Suriya və Mozambikdən olan 9 universitetin (Azərbaycan Diplomatiya Akademiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Memarlıq İnşaat Universiteti, Bakı Mühəndislik Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Xəzər Universiteti) tələbələri özlərini sınayıb.

Yarışmanın münsiflər heyətində millət vəkilləri Şahin İsmayılov, Kamran Bayramov, Gənclər Fondunun Strateji Planlaşdırma və Beynəlxalq Əlaqələr Sektorunun müdiri Vüsalə Niftəliyeva, Gənclər və İdman Nazirliyinin gənclərlə iş şöbəsinin müdiri İndira Hacıyeva, Təhsil Nazirliyinin Beynəlxalq Əməkdaşlıq Şöbəsinin böyük məsləhətçisi Müjdat Həsənov, Bakı Şəhər Həlqəsi Əməliyyat Komitəsinin (BŞHƏK) Marketinq və kommunikasiya şöbəsinin rəhbəri Nigar Arpadarai və Gənclər Təşkilatları Milli Şurasının sədr müavini Aysun Zeynalova təmsil olunublar.

Tədbirdə hökumət və dövlət rəsmiləri ilə yanaşı, beynəlxalq xarici ölkə səfirləri, o cümlədən BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi və BMT-nin İnkişaf Proqramının (BMTİP) Rezident Nümayəndəsi Qulam İsakzai, Hindistanın Azərbaycandakı səfiri Sancay Rana, Yunanıstanın Azərbaycandakı səfiri Dmitrious Tsounqas, Ukraynanın Azərbaycandakı səfirliyinin birinci katibi Yankovski Yevgei və Polşa səfirliyinin 3-cü katibi Anna Vitak iştirak edib.

# ATU nümayəndəsi İspaniyada elmi-tədqiqat işi aparıb

- **Beynəlxalq əlaqələrin güclənməsinə, kadrların bilik və bacarıqlarının artırılmasına xüsusi diqqət yetirən Azərbaycan Tibb Universitetinin mütəxəssisləri mütəmadi olaraq xarici dövlətlərdə staj keçir, təcrübələrini artırırlar. ATU-nun ümumi və toksikoloji kimya kafedrasının assistenti Kəmalə Bədəlova altı ay müddətində İspaniyanın nüfuzlu universitetində çalışıb.**





K.Bədəlova ATU-da Rəhimə Qabulovanın koordinatoru olduğu “Erasmus Mundus Medea” layihəsi çərçivəsində İspaniyaya təqaüd qazandığını bildirərək dedi ki, mən Santiago De Compostela Universitetində “Analitical chemistry” (analitik kimya) kafedrasında işə başladım: “Ötən ilin sentyabrından bu ilin aprelinədək bu proqram çərçivəsində İspaniyada çalışdım. ATU-nun ümumi toksikoloji kimya kafedrasında elmi rəhbərim həmin kafedranın müdiri, professor Qayıbverdi İsgəndərov, Santiago De Compostela Universitetində isə kafedra müdiri Antonio Marida Pinera olub”.

K.Bədəlova İspaniyada doktorantura proqramı çərçivəsində yarım il ərzində İspaniyada iki mövzu üzrə tədqiqat aparıb. Bu müddət ərzində “Dəniz məhsullarında qurğuşunun təyini” və “İnsan orqanizmində titanium oksid və gümüş nano hissəciklərinin təyini” mövzusunda ciddi araşdırma ilə məşğul olub: “Bu hissəciklər insan orqanizmində toksikoloji rol oynayırlar. Lakin tibbdə bunlardan dərman kimi də istifadə olunur. Tədqiqat nəticəsində çox yaxşı və maraqlı nəticələr aldıq. Santiago De Compostela Universitetinin kimya fakültəsində və analitik kimya kafedrasında QT qrupu çərçivəsində ətraflı təqdimatla çıxış etdik”.

Kəmalə Bədəlova İspaniyada işlədiyi müddətdə həm də ictimai aktivlik nümayiş etdirərək Azərbaycanın hərtərəfli tanıdılması istiqamətində tədbirlər təşkil edib. O, universitetdə keçirilən “International Day” Beynəlxalq yarışmasında Azərbaycanın mədəniyyəti, təbii sərvətlərinə dair təqdimatla çıxış edib. Bu haqda yerli mediada məlumatlar yayımlanmasına nail olub. ATU nümayəndəsi, həmçinin, Azərbaycanın İspaniya təmsilçisi qismində Dünya Azərbaycanlıları Assambleyasının Köln Forumuna qatılıb.

K.Bədəlova ümid edir ki, İspaniyada əldə etdiyi nailiyyətləri yaxın zamanlarda Azərbaycan Tibb Universitetindəki işində tətbiq edə biləcək. Və bu qarşılıqlı tədqiqatlar iki ölkənin universitetləri arasında əlaqələrin daha da möhkəmlənməsinə, yeni qarşılıqlı layihələrin ortaya çıxmasına səbəb olacaq.

**ATU-nun mətbuat xidməti**

# “Tibbi fiziologiyanın əsasları” kitabının təqdimatı keçirilib




**Aprelin 29-da Beynəlxalq Mətbuat Mərkəzində ATU-nun normal fiziologiya kafedrasının dosenti Rəşid Mahmudovun “Tibbi fiziologiyanın əsasları” kitabının təqdimatı keçirilib. Nəşr Səhiyyə Nazirliyi kollegiyasının qərarına əsasən dərslik kimi təsdiq edilib.**

Fizioloq, ginekoloq, uşaq həkimi, doktorant, tibb ixtisaslı mütəxəssislər və tibb sahəsi üzrə təhsil alan tələbələrin istifadəsi üçün nəzərdə tutulan nəşrdə kök hüceyrələrinin fiziologiyası və interleykinlər barədə məlumatlar yer alıb. Bundan əlavə dərslikdə hüceyrə fiziologiyası, dölün, yenidoğulmuşların immun sisitemi və bioloji ritmlərin fiziologiyası haqqında da bəhs olunur.

Kitab “Şərq-Qərb” ASC-nin mətbəəsində çap olunub.

## Etibarsız sayılır

Əczaçılıq fakültəsinin I kurs, $802^a$ qrup tələbəsi Nəcəfova Aytac Xəyyam qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin II kurs, $840^a$ qrup tələbəsi Hüseynova Bahar Arzuman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin III kurs, $861^b$ qrup tələbəsi Muradova Ləman Malik qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Tibbi profilaktika fakültəsinin VI kurs, $632^a$ qrup tələbəsi İsgəndərova Nazimə Bəbir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Xudaverdiyeva Cəmilə Tağı qızına 2011-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən oftalmoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $46^b$ qrup tələbəsi Altın Ahmet Muaz Nevzat oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $46^a$ qrup tələbəsi Abduləlimova Minayə Mahir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Elmi Tədqiqat Mərkəzinin kollektivi, uşaq cərrahlığı, ümumi və toksikoloji kimya kafedralarının əməkdaşları ortopedik stomatologiya kafedrasının məsləhətçi-professoru

**Kərimov Elxan Emin oğlunun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları kafedranın müdiri Akif Miriyevə baldızı

**Mahirə xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları kafedranın baş müəllimi Zəminə Mustafayevaya anası

**Sinə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları kafedranın baş müəllimi Leyla Məmmədovaya atası

**Murad Aşurovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları kafedranın müəllimi Sura Pənahlıya anası

**Gülinə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Təbib” qəzetinin kollektivi, fizioterapiya və idman təbabəti, nevrologiya və ictimai fənlər kafedralarının əməkdaşları fizioterapiya və idman təbabəti kafedrasının tədris işləri üzrə müdiri, dosent Paşa Mehdiyevə atası

**Surxay Mehdiyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi fizika və informatika kafedrasının əməkdaşları kafedranın dosenti Elza Hüseynovaya əzizi

**Polad Hüsnü oğlu Əjdərovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları iş yoldaşları Nəsibə Əliyevaya əmisi

**Məmmədhüseyn müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I daxili xəstəliklər və reanimatologiya kafedrasının əməkdaşları kafedranın dosenti Fətulla Əlimərdanova qaynanası

**Sürəyya xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Burun, qulaq, boğaz xəstəlikləri kafedrasının kollektivi kafedranın sabiq əməkdaşı

**Gülüş Mustafayevanın**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet “Təbib” qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, “Bəxtiyar-4” İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - $98^c$**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800